**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.2.122**

**KƏMALƏ ŞƏFİYEVA***

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ

*Müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Respublikaya rəhbərlik etdiyi 1969 - 2003-cü illər ərzində Azərbaycan musiqi mədəniyyətini sürətlə inkişaf etdirmişdir. Onun məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycan musiqi mədəniyyətinin inkişaf prosesi xeyli dərəcədə güclənmişdir. Heydər Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən bir şəxsiyyətin Azərbaycana rəhbərlik etməsi respublikanın mədəni həyatında sürətli yüksəlişə səbəb olmuşdur və bunun nəticəsində incəsənət ustaları tərəfindən mühüm nailiyyətlər qazanılmışdır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, mədəni siyasət, musiqi mədəniyyəti, klassik musiqi.*

## Giriş

Müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev xalqımızın musiqi istedadını daim yüksək qiymətləndirmiş və hesab etmişdir ki, bizim xalqımızda incəsənət, musiqi, mədəniyyət baxımından kütləvi istedad vardır. Ulu öndər Respublikaya rəhbərlik etməyə başladığı 1969-cu ildən 2003-cü ilə qədər Azərbaycan musiqi mədəniyyətinin tərəqqisində müstəsna rol oynamışdır. Musiqi mədəniyyət klassiklərimizin geniş miqyasda, beynəlxalq aləmdə tanınmasında böyük xidmətləri olmuş ölkə rəhbərinin Azərbaycan musiqi sənətinə verdiyi yüksək qiymət bu sahədə çalışanları hər zaman yaradıcılığa ruhlandırmış, onlara öz fəaliyyətlərini genişləndirməyə sövq etmişdir.

## Əsas təhlil

Azərbaycan musiqi mədəniyyətinin inkişaf prosesi Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində xeyli dərəcədə güclənmişdi. Azərbaycanda mədəniyyət və incəsənət günlərinin, festivalların, beynəlxalq konfransların keçirilməsi ilə əlaqədar təşkil olunan tədbirlər daha zəngin, canlı və maraqla həyata keçirilirdi. Yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdı.

Heydər Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən bir şəxsiyyətin Azərbaycana rəhbərlik etməsi respublikanın mədəni həyatında sürətli yüksəlişə səbəb oldu. Azəbaycanda musiqi həyatının sürətlə inkişafı H.Əliyevin şəxsiyyəti, onun çoxcəhətli idarəçilik istedadı, siyasi-dövlətçilik fəaliyyəti ilə sıx bağlı idi.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin, o cümlədən dahi bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin zəngin irsinin öyrənilməsi (“Üzeyir Hacıbəyov ensiklopediyasının nəşr edilməsi”, 1996), xatirə ev-muzeylərinin açılması (Ü.Hacıbəylinin ev-muzeyinin açılması, 1975, 20 noyabr ; Bülbülün xatirə muzeyinin açılması, 1972, 10 iyun ; Niyazinin xatirə muzeyinin açılması, 1994, 18 sentyabr), Aşıq Ələsgərin, Ü. Hacıbəylinin, M. Maqomayevin yubileylərin keçirilməsi, Azərbaycanda milli ruhun və özünüdərkin yüksəlişini təmin etmiş, xalqın tarixi yaddaşının özünə qaytarılması üçün zəmin yaratmışdır. H.Əliyevə görə, “tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında xidmətlərinə verilən qiymətdir...Digər tərəfdən, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir” [1, s.64].

Xüsusilə 70-80-ci illərdə Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm nailiyyətlər qazanılmışdı. Milli mədəni sərvətlərin tədqiqi və təbliği bu dövrdə sürətlə vüsət almışdır. Respublikada musiqi, ifaçılıq sənəti sahəsində irəliləmələr baş vermişdi. Fikrət Əmirovun “1001 gecə”, A. Əlizadənin “Babək” balteləri musiqi sənətinin ən mühüm nailiyyətləri idi. Arif Məlikov, Xəyyam Mirzəzadənin əsərləri simfonik musiqinin inkişafında mühüm rol oynadı. Şəfiqə Axundovanın “Gəlin qayası” operası (1972), Emin Sabitoğlunun “Hicran” musiqili komediyası tamaşaçılar tərəfindən maraqla qarşılandı. Tofiq Quliyev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Polad

Bülbüloğlu, Elza İbrahimova, Cavanşir Quliyevin mahnıları xalqın rəğbətini qazandı.

Ötən əsrin 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyevin milli mədəniyyətlə bağlı söylədiyi mülahizələr, həyata keçirdiyi ideyalar Azərbaycan musiqi mədəniyyətinə layiqli töhfə olmuşdur. Bu illərdə H. Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında görkəmli dirijor Niyazinin ifasında simfonik konsert gecələrin təşkili ənənə şəklini almışdı (2, s.244). Onun müstəqillik dövründə musiqi mədəniyyətimizin inkişafı naminə imzaladığı fərman və sərəncamlar bu sahədə apardığı siyasətin aydın təzahürləridir. 1997-ci il noyabrın 10-da Prezident “Azərbaycan Respulikasının ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında” Fərman imzaladı. İncəsənət xadimləri üçün fərdi təqaüdlər təyin edildi. 1998-ci il mayın 22-də “Azərbaycan Respublikasında fəxri adılar haqqında”, 2002-ci il iyunun 11-də “Azərbaycan Respublikası Prezidentinin fəxri təqaüdlərinin təsis edilməsi haqqında” fərmanlar verildi [2]. 2002-ci ilin iyun ayında Prezident elm, incəsənət maarif və digər sahələrdə xidməti olmuş 150 nəfərə Prezident təqaüdü təyin etdi [3].

Heydər Əliyevin geniş fəaliyyətinin mühüm cəhətlərindən biri də onun tərəfindən görkəmli incəsənət ustalarına, o cümlədən bəstəkarlara Prezident təqaüdünün təsis edilməsidir. Onun Prezident təqaüdü təsis etməsini incəsənətimizin inkişafı yolunda tarixi addım kimi dəyərləndirmək olar. Bu yüksək təqaüdlə təltif olunanlar sırasında Tofiq Quliyev, Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Şəfiqə Axundova, Vasif Adıgözəlov, Ramiz Mustafayev, Azər Rzayev, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Arif Məlikov, Xəyyam Mirzəzadə, Ramiz Mirişli, Musa Mirzəyev, Nəriman Məmmədov, Elza İbrahimova, Oqtay Kazımov kimi görkəmli bəstəkarlar, musiqişünas Elmira Abasova da vardır.

Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə cənab Heydər Əliyev Azərbaycan bəstəkarlarına dövlət səviyyəsində diqqət və qayğını əsirgəməmişdir. Elə 1995 – 2003-cü illər ərzində Prezident H.Əliyevin fərmanı ilə görkəmli bəstəkarlarımız Tofiq Quliyev, Arif Məlikov, Müslüm Maqomayev ən yüksək mükafata – “İstiqlal” ordeninə, Azərbaycan Respublikasının xalq artistləri Cövdət Hacıyev, Süleyman Ələsgərov, Hacı Xanməmmədov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə, Azər Rzayev, Ramiz Mustafayev, Tofiq Bakıxanov, Aqşin Əlizadə, Musa Mirzəyev, Ramiz Mirişli daha bir yüksək dövlət mükafatı – “Şöhrət” ordeni ilə təltif olunmuşdur. Bu müddətdə Şəfiqə Axundova, Oqtay Zülfüqarov, Emin Sabitoğlu Azərbaycan Respublikasının xalq artisti, Siyavuş Kərimi və Həsənağa Qurbanov isə əməkdar incəsənət xadimi kimi fəxri adlara layiq görülmüşlər.

Azərbaycan musiqi sənəti ən müxtəlif janrlarda yeni əsərlərlə zənginləşirdi. Bəstəkar Cövdət Hacıyevin dövrün dramatizmini, xalqın ümid və inamını musiqi dili ilə əks etdirən “Onu zaman seçib” adlı 8 saylı simfoniyası, Vasif Adıgözəlovun “Azərbaycan” kantatası, Ramiz Mustafayevin “Atamız Heydər” odası, Arif Məlikovun 8 saylı “Əbədiyyət” adlı simfoniyası, Ramiz Mirişlinin “Məşəl kimi yanan ürək” odası, Tofiq Bakıxanovun “Xatirə poeması”, Sərdar Fərəcovun “Böyük vətəndaş haqqında” odası, Vasif Allahverdiyevin “Ömür yolu” simfonik poeması xalqın səadəti, müstəqilliyinin əbədi olması uğrunda mübarizədə yorulmaz və dönməz şəxsiyyətə - Prezident Heydər Əliyevə həsr olunmuşdu.

Həmin dövrdə balet janrında yazılmış əsərlər də diqqəti cəlb edir. Bəstəkarlarımız musiqi sənətinin bu sahəsini zənginləşdirə bilən rəngarəng süjetli və müxtəlif mövzulu baletlər yaratmışlar. Aqşin Əlizadənin “Babək” və “Qafqaza səyahət” baletlərini, Xəyyam Mirzəzadənin “Ağlar və qaralar” baletini, ilk Azərbaycan baleti olan Əfrasiyab Bədəlbəylinin “Qız qalası”nı (bəstəkar Musa Mirzəyevin yeni redaksiyasında), Tofiq Bakıxanovun Nizaminin “Xəmsə”si əsasında “Xeyir və Şər”, S. Yeseninin şeriyyatı əsasında “Şərq poeması” baletlərini nümunə göstərə bilərik.

Vətən, Qarabağ, Şəhidlərlə bağlı mövzular simfonik və iri həcmli proqramlı vokal-simfonik əsərlərdə öz dolğun ifadəsini tapmışdır. C. Hacıyevin 7 saylı “Şəhidlərin xatirəsinə” simfoniyası, R. Mustafayevin 6 saylı “20 yanvar” simfoniyası, A. Rzayevin “Bakı-90” simfoniyası, T. Bakıxanovun “Humayun”, “Nəva”, “Rahab”, “Şahnaz” simfonik muğamları, M. Quliyevin “Simfoniya-Rekviem”i, A. Mirzəyevin “Yanvar mərsiyələri” ; V. Adıgözəlovun “Qarabağ şikəstəsi”, “Qəm karvanı” oratoriyaları, R. Mustafayevin “Haqq səninlədir, Azərbaycan” kantatası, T. Bakıxanovun “Qarabağ harayı” simfoniyası, A. Əlizadənin “Ana torpaq” odası, S. İbrahimovanın “Vətən şəhidləri” kantatası, A. Dadaşovun “Şuşa” adlı 11 saylı simfoniyası, N. Məmmədovun “Xocalı” adlı 7 saylı simfoniyası

kimi əsərlər buna misaldır. Azərbaycan musiqisində Vətəni tərənnüm edən əsərlər, hərbi mövzu da xeyli inkişaf etmişdi. S. Ələsgərovun "Əsgər marşı", Ş. Musaoğlunun əsgər mahnıları xalqda qələbə hissi oyadırdı. Cavanşir Quliyevin "Əsgər marşı" dillər əzbəri olmuşdu.

1995-2002-ci illərdə Respublikamızın musiqi həyatında canlanma baş verirdi. Azərbaycan Dövlət Filarmoniyasının binasında əsaslı təmir işləri aparıldı. 2002-ci il noyabrın 29-da Azərbaycan Prezidenti bu binanı müasir konsert müəssisəsi tələblərinə uyğunlaşdırmaq məqsədilə əlavə tikinti işləri aparılması və onun lazımi avadanlıqlarla təmin edilməsi üçün xüsusi sərəncam verdi [4].

Azərbaycan musiqi ifaçılığı sənəti də inkişaf etməkdə və geniş təbliğ olunmaqda idi. Muğam, xalq mahnıları və təsnif ifaçılarının ənənəvi müsabiqələri keçirilirdi. 1997-ci ilin noyabr ayında Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi. Münsiflər heyətinə dünyanın adlı-sanlı musiqi xadimləri daxil olan bu nüfuzlu müsabiqədə Azərbaycanın və xarici ölkələrin gənc ifaçıları iştirak edirdilər. Rəşid Behbudov, Zeynəb Xanlarova, Elmira Rəhimova, Müslüm Maqomayev (nəvə), Firəngiz Əhmədova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, Rauf Atakişiyev, Rübabə Muradova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə, Habil Əliyev və başqalarının ifaçılıq sənəti özünəməxsus zəngin koloriti və təkrarsızlığı ilə seçilirdi. Rəfiqə Axundova, Maqsud Məmmədov, Çimnaz Babayeva, Tamilla Şirəliyeva və b. milli baletimizin yorulmaz ifaçıları və təbliğatçıları idi. Onların tez-tez xarici ölkələrə qastrolları Azərbaycan musiqisinin və ifaçılıq sənəti nailiyyətlərinin geniş təbliğinə kömək edirdi.

Prezident Heydər Əliyev gənclərlə iş layihəsinə də imza ataraq, 1996-cı il iyunun 22-də "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", 1997-ci il sentyabrın 13-də "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" fərmanlar verdi [5].

Dövlət, maddi imkanları hələ məhdud olsa da, teatr, musiqi kollektivlərinin yaşamasına, inkişaf etməsinə qayğı göstərirdi. Dövlət müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatına keçidlə əlaqədar yaranmış sosial problemləri Dövlət səviyyəsində müvəffəqiyyətlə həll edən Prezident Heydər Əliyev 1997-ci il dekabrın 2-də "Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında", 1999-cu il dekabrın 6-da "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", 2000-ci il iyunun 2-də "Azərbaycan Dövlət Xor Kapellasının sosial təminatını yaxşılaşdırmaq haqqında", 2001-ci il oktyabrın 15-də "Azərbaycan Dövlət Rəqs Ansamblı işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında" fərmanlar verdi [6].

Azərbaycan Opera və Balet Teatrında xalqın qəhrəmanlıq tarixindən, müasir həyatından bəhs edən əsərlərə səhnə həyatı verildi. 1997-ci ildə Ü. Hacıbəylinin "Koroğlu" operası, "Arşın mal alan" musiqili komediyası, 1998-ci ildə Musiqili Komediya Teatrında Ü. Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası, habelə başqa klassik əsərlərin səhnə həyatı yaşamağa başladı. Respublikanın musiqi həyatında əlamətdar hadisə olan bir sıra əsərlər, o cümlədən, A. Məlikovun VII simfoniyası, V. Adıgözəlovun "Qarabağ", "Çanaqqala" oratoriyaları musiqi ictimaiyyəti tərəfindən maraqla qarşılandı.

Azərbaycanın xarici ölkələrlə sıx musiqi əlaqələrinin yaranması və inkişafı, görkəmli sənətkarların Respublikaya dəvət olunması musiqi mədəniyyətimizin beynəlxalq əlaqələrinin daha da genişlənməsini təmin etdi. Bu baxımdan dünya şöhrətli sənətkar Mstislav Rostopoviçin şəxsən H. Əliyevin dəvəti ilə ölkəmizə qostrola və ustad sinfi aparmağa gəlməsi, onun təfsiri ilə Azərbaycan bəstəkarlarının simfonik əsərlərinin Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında səsləndirilməsi, həmçinin xarici ölkələrdə də bəstəkarlarımızın əsərlərinin ifa olunması Azərbaycan professional musiqisinin müasir dövrdə dünya miqyasında tanınması və təbliği sahəsində xüsusi əhəmiyyət kəsb edir.

**Nəticə**

Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyev ictimai-siyasi fəaliyyəti ilə elm və mədəniyyətin digər sahələrində olduğu kimi, xalqın musiqi mədəniyyətinin inkişafına hədsiz xidmət etmiş, sənətə və sənətkara hər zaman yüksək dəyər vermişdir. Mərhum prezident respublikamıza 30 ildən artıq rəhbərliyi dövründə musiqi mədəniyyətinin görkəmli nümayəndələrinin yaradıcılıq fəaliyyəti ilə daim maraqlanmış, onların uğurlarına və nailiyyətlərinə yüksək qiymət vermişdir. Azərbaycan musiqi mədəniyyətinin çiçəklənməsində Heydər Əliyevin əvəzsiz rolu vardır.

**ƏDƏBİYYAT**
1. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı, "Şərq-Qərb", 2007.
2. Azərbaycan tarixi. VII cild, Bakı, "Elm", 2003.
3. "Xalq qəzeti", 6 may 1997-ci il.
4. "Azərbaycan qəzeti", 4 iyul 1997-ci il.
5. "Xalq qəzeti", 4 noyabr 1997-ci il.
6. "Xalq qəzeti", 28 avqust 1997-ci il.
7. "Эхо" qəzeti, 30 yanvar 2002-ci il ; "Azərbaycan" qəzeti, 19 yanvar 2003-cü il.

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
***E-mail: muzik-muza@rambler.ru***

**Kamala Shafiyeva**

**HAYDAR ALİYEV AND AZERBAİJAN CULTURE**

Heydar Aliyev, the founder of the independent state of Azerbaijan, rapidly developed the musical culture of Azerbaijan during the years 1969-2003, when he led the Republic. As a result of his purposeful political activity, the development process of Azerbaijani musical culture has strengthened to a great extent. The leadership of Azerbaijan by an innately talented, visionary person who loves his people with infinite love like Heydar Aliyev has led to a rapid rise in the cultural life of the republic, and as a result, important achievements have been made by art masters.

**Keywords:** *Heydar Aliyev, Republic of Azerbaijan, cultural policy, musical culture, classical music.*

**Кямаля Шафиева**

**ГЕЙДАРА АЛИЕВ И МУЗЫКАЛЬНАЯ КУЛЬТУРА АЗЕРБАЙДЖАНА**

Гейдар Алиев, основатель независимого Азербайджанского государства, возглавляя республику стремительно развивал музыкальную культуру Азербайджана в 1969-2003 годах. В результате его целенаправленной политической деятельности процесс развития азербайджанской музыкальной культуры значительно укрепился. Руководство Азербайджаном такого прирожденно талантливого, дальновидного человека, любящего свой народ бесконечной любовью, как Гейдар Алиев, привело к стремительному подъему культурной жизни республики, и как следствие, были достигнуты значительные успехи мастеров искусства.

**Ключевые слова:** *Гейдар Алиев, Азербайджанская Республика, культурная политика, музыкальное искусство, классическая музыка.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.04.2024**
**Son daxilolma tarixi:21.05.2024**